KÜRD
# DÎPLOMAT
**xalqı mübariz və qəhrəman xalqdır**
Heydər Əliyev

№ 06 (451) 18 -24 Mart-Adar, sal 2019
Ji meha şûbatê sala 2003-a tê weşandin
*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî
Qiymәti: Hêjaye: 40 qəpik

## XALQIMIZI NOVRUZ BAYRAMI MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİRİK!

## 31-SAL SER KOMKÛJÎYA HELEPÇA ŞEHÎD DERBASBÛ



Səh. 2

**Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edib**


Səh. 11

**Barzaniyê Nemir, dijwartirîn xebat.. Bihêztirîn rêber**


Səh. 12

**Serok Barzanî pêşwaziya Falih Feyaz kir**


Səh. 4

**HƏLƏPÇƏ FACİƏSİ HEÇ ZAMAN UNUDULMAYACAQ**


Səh. 8

**Jîyan û bi serhata azadîkarê gelê kurd Gênêral Mistefa Barzanî**


Səh. 8

**Neçirvan Barzani, Türkiye'ye çağrıda bulundu: Öcalan Kürt sorunun kilit muhataplarından biri**


Səh. 18

**Масрур Барзани обсудил вопросы расширения торговли и энергетических связей с Турцией**

## HELEPÇE TU CAR JI BÎR NAÇE
Səh. 5

## Serokê herêma Kurdistanê tê hilbijartin
Səh. 12

## Daşkəsənli şəhid dəfn edildi
Səh. 3

## 1947-ci il. Mustafa Bərzanivə onun kürd peşmərgələri Azərbaycanda
Səh. 7

## ZƏRDÜŞT VƏ NOVRUZ HAQQINDA
Səh. 6

## Diyarbakır Newrozu'na izin çıktı
Səh. 8


Səh. 13

**YNK: Me şandek pêk anîye bo danûstandin ligel PDKê**


Səh. 12

**Berdevkê PDKê: Em dixwazin bilez hikûmet ava bibe ji bo em rewşa xelkê baştir bikin**


Səh. 12

**Rûreşiya Mirovahîyê Jenosîd a Helebceyê li Wanê Hat Bîranîn**


Səh. 13

**HAK-PAR'Ê BANG LI ENQEREYÊ KIR KU KÎMYABARANÊ WEKÎ JENOSEÎD QEBÛL BIKE**

# Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edib

Əziz xanımlar və cənablar.

Əziz qonaqlar.

Əziz dostlar.

Azərbaycana xoş gəlmisiniz. Sizin hamınızı görməyimə çox şadam. Bu mühüm beynəlxalq tədbirdə bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edirəm. Mən, ilk növbədə, Nizami Mərkəzinin qlobal beynəlxalq instituta çevrilməsinə verdikləri əhəmiyyətli töhfəyə görə dünən görüş keçirdiyim Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri - xanım Vike-Freyberqaya, cənab Serageldinə və İdarə Heyətinin üzvlərinə təşəkkürümü bildirmək istərdim.

Qlobal Bakı Forumu qlobal gündəlikdə duran aktual məsələlərlə məşğul olan ən mühüm beynəlxalq platformalardan biridir. Əvvəlki forumların mövzuları qlobal məsələlərin bugünkü gündəliyini əks etdirir. Düşünürəm ki, bu, xarici siyasətlə bağlı məsələlərlə, - bu, yeni xarici siyasət adlandırılır, – məşğul olmaq üçün çox yaxşı seçimdir. Çünki son forumdan bəri, xüsusilə ölkələr arasında münasibətlərdə, dünyada təhlükəsizlik və proqnozlaşdırılabilmə ilə bağlı məsələlərdə çox şey dəyişib. Mən çox şadam ki, forumun çoxsaylı iştirakçısı var. Forumda 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. Qonaqlarımızın arasında 5 hazırkı prezident, 1 hazırkı baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət və hökumət başçısı, görkəmli siyasətçilər, vətəndaş cəmiyyətinin təmsilçiləri, jurnalistlər, alimlər, gənc liderlər var.

Bu gün bu zalda böyük intellektual potensial var, bu da, əslində, Forumun əhəmiyyətini əks etdirir. Qlobal gündəlikdə çox sayda beynəlxalq tədbir, konfrans var. Lakin keyfiyyət iştirakçıların siyahısına, onların təcrübəsinə və intellektual potensialına görə ölçülür. Bu səbəbdən, mən düşünürəm ki, Qlobal Bakı Forumunun dünya xəritəsində nadir yeri var. Əminəm ki, qarşıdakı günlərdə müzakirə olunacaq məsələlər beynəlxalq münasibətlərin gələcəyi, dünyanın gələcəyi ilə bağlı qərar verənlərin diqqətini cəlb edəcək.

Azərbaycanın xarici siyasəti barədə danışarkən, mən deyərdim ki, o, çox dəyişməyib. Biz Azərbaycanın yeni xarici siyasəti barədə danışa bilmərik. Lakin sözsüz ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq. Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O, bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Ona görə də Azərbaycan sonuncu Forumdan bəri xarici siyasət istiqamətləri ilə bağlı təşəbbüslərini davam etdirib. Düşünürəm ki, biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq. Əlbəttə ki, istənilən ölkə, o cümlədən Azərbaycan üçün qonşularla münasibətlərin qurulması əsas prioritetdir. Bu mənada, sonuncu Forumdan bəri bizim əlaqələrimiz güclənib. Biz qonşularımızla qarşılıqlı maraqlara, qarşılıqlı hörmətə əsaslanan çox məhsuldar işçi münasibətlər qurmuşuq. Bu, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və investisiya sahələrində daha çox körpü qurmağa kömək edir. Bu səbəbdən, bizim qonşu ölkələrlə ənənəvi əlaqələrimiz regional təhlükəsizliyi təmin edir.

Regional təhlükəsizlikdən söhbət açarkən, biz, əlbəttə ki, Ermənistanla Azərbaycan arasındakı münaqişədən danışmalıyıq. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edir. Bu işğal nəticəsində Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ və ölkəmizin digər 7 rayonu işğal altındadır, bir milyondan çox qaçqın və məcburi köçkün işğaldan əziyyət çəkir. Xalqımız etnik təmizləməyə məruz qalıb. İşğal olunmuş ərazilərdəki bütün tarixi abidələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və bu, işğal olunmuş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərmiş ATƏT-in hesabatında öz əksini tapıb. Azərbaycan torpaqlarının işğalı




beynəlxalq hüququn, əsas beynəlxalq təşkilatların müvafiq qətnamələrinin və qərarlarının kobud şəkildə pozulmasıdır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib və onlar Ermənistan tərəfindən yerinə yetirilmir. BMT Baş Assambleyası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı və digər təşkilatlar oxşar qətnamə və qərarlar qəbul ediblər. Onlar beynəlxalq hüquqa, ədalətə əsaslanır və münaqişənin sülh yolu ilə həlli üçün hüquqi baza yaradır. Status-kvo qəbuledilməzdir. Danışıqları təşkil etmək üçün mandata sahib olan ATƏT-in Minsk qrupu ölkələrinin prezidentləri dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və biz bunu tam dəstəkləyirik. Status-kvo dəyişməlidir və bunu etmək üçün Ermənistan öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa başlamalı, qaçqın və məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan yaratmalıdır.

Ermənistan hökuməti danışıqların formatını dəyişmək üçün cəhdlər edib və biz hələ də bu cəhdləri görürük. Bu, tamamilə qəbuledilməz və qeyri-effektivdir. Biz bunu danışıqlar prosesini əngəlləmək cəhdi hesab edirik. Bu cür düşünən tək biz deyilik. Şadıq ki, beynəlxalq təşkilatlar bu fikri paylaşır. Bir qədər əvvəl ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yaydılar və faktiki olaraq Ermənistana açıq mesaj göndərdilər ki, onların danışıqlar formatını dəyişdirmək cəhdləri qəbuledilməzdir. Ondan bir neçə gün əvvəl Avropa İttifaqının yüksək rütbəli rəsmiləri eyni bəyanatla çıxış etdilər. Danışıqlar formatı uzun illər ərzində işlənib hazırlanıb və onu dəyişmək üçün birtərəfli qaydada edilən istənilən cəhd danışıqlar prosesini əngəlləmək cəhdi kimi qiymətləndirilir və bütün məsuliyyət bunu etməyə çalışan tərəfin üzərinə düşür. Bu səbəbdən, birincisi, danışıqlar formatı dəyişdirilə bilməz və ikincisi, danışıqlar nəticəyönümlü olmalıdır, sadəcə, danışıqlar xatirinə olmamalıdır. Azərbaycan bu prosesi davam etdirməyə hazırdır və danışıqların nəticəsi olaraq bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. Ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə arasındakı balans BMT-nin Nizamnaməsində, Helsinki Yekun Aktında çox aydın şəkildə izah olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Ona görə də, münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Bizim xarici siyasət prioritetlərimiz, həmçinin beynəlxalq təşkilatlarla əlaqələri əhatə edir. Biz müxtəlif beynəlxalq təşkilatlar arasında körpülər yaradan müxtəlif təşəbbüslərdə fəal şəkildə iştirak edirik. İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan az sayda ölkələrdən biri olaraq biz bu iki təşkilat arasında daha çox tərəfdaşlıq qurmaq üçün bu imkandan istifadə edirik. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında İslam həmrəyliyinin gücləndirilməsi, bəzi üzv ölkələr arasında gərginliyin azaldılmasında mühüm rol oynayır. Biz səylərimizin nümayişi olaraq iki il bundan əvvəl IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirdik. Ondan iki il əvvəl Azərbaycan birinci Avropa Oyunlarını keçirən ölkə oldu. Təsəvvür edirsinizmi, biz iki il ərzində eyni şəhərdə həm Avropa Oyunlarını, həm də İslam Həmrəyliyi Oyunlarını keçirdik. Bu, əslində, bizim beynəlxalq arenadakı rolumuzu, ölkələri və sivilizasiyaları yaxınlaşdırmaq istiqamətində səylərimizi əks etdirir. Biz Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıqla bağlı bəyannamələr və razılaşmalar imzalamışıq və qəbul etmişik. Bu, üzv ölkələrin üçdəbiridir və həmçinin bizim Avropa ölkələri ilə fəal əməkdaşlığımızı nümayiş etdirir. Biz ötən il Avropa İttifaqı ilə əməkdaşlığımızın bütün əsas sahələrini əhatə edən, tərəfdaşlıq prioritetləri adlanan çox mühüm bir sənədi parafladıq. Bu sənəddə, xüsusilə, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli ilə bağlı məqam aydın əksini tapıb. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına tam dəstək ifadə olunur. Ona görə də, Ermənistanla münaqişəyə gəlincə, bir daha deməliyəm ki, bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin həllini bu prinsiplər əsasında görür. Münaqişənin həllinin yeganə yolu Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Azərbaycan müxtəlif ölkələrlə yaxın əməkdaşlıq imkanından istifadə edərək Bakı prosesinə start verdi. Ötən il biz Bakı prosesinin 10-cu ildönümünü qeyd etdik. Bu, bizim İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərini birgə toplantıya dəvət etməyimizlə başladı. Bu, çox uğurlu oldu və beləliklə, növbəti il biz daha bir görüş keçirdik və sonra, BMT tərəfindən dəstəklənən bu format Bakı prosesi adlandırıldı. Bu, 100-dən çox ölkəni əhatə edən həmin iki böyük beynəlxalq təşkilat arasında qarşılıqlı əlaqə və müzakirələrin yeganə formatıdır.

Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur. Azərbaycan nisbətən gənc müstəqil ölkədir. Lakin, biz beynəlxalq ictimaiyyətdən çox güclü dəstək alırıq. Bunun sübutu olaraq, mən bir neçə il əvvəl Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini qeyd edərdim. Bu, onu göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı var. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi biz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində çox mühüm rol oynadıq. Biz, həmçinin qlobal təhlükəsizlik sahəsində rol oynayırıq. Biz sülhməramlı əməliyyatlarda iştirak edirik. Bu yaxınlarda biz Əfqanıstanda təhlükəsizliyi təmin edən hərbçilərimizin sayını artırdıq. Biz, həmçinin koalisiya qüvvələrini çox mühüm nəqliyyat və logistika dəstəyi ilə təmin edirik. Azərbaycanın üzvü olduğu Şimal paylaşdırma şəbəkəsi çox etibarlı təchizat marşrutudur. Bu, həm də müasir infrastruktura, xüsusilə nəqliyyata investisiyaların yatırılması sayəsində mümkün olub. Sonuncu Qlobal Forumdan sonra keçən dövrdə biz Xəzər dənizinin Azərbaycan sahilində böyük dəniz ticarət limanının açılışını etdik. Bu dəniz limanı böyük həcmdə - ilkin mərhələdə 15 milyon tondan 25 milyon tonadək yükləri nəql etmək qabiliyyətinə malikdir və ölkələri yaxınlaşdırmaq baxımından çox mühüm rol oynayır.

Xarici siyasətdən danışarkən, əlbəttə ki, bizim bu siyasətin mahiyyətinə ehtiyacımız var. Xarici siyasətimiz, siyasi səylərimiz olmadan Azərbaycanın artıq sahib olduğu güclü nəqliyyat əlaqələrini qurmaq mümkün olmazdı. Bizim ölkəmizi regional nəqliyyat mərkəzinə çevirməklə bağlı bir neçə il bundan əvvəlki hədəflərimiz artıq öz nəticələrini verir. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. 2017-ci ildə biz Gürcüstandan keçməklə Azərbaycan və Türkiyə arasında dəmir yolu xəttinin açılışını etməklə, Avropa dəmir yolu ilə Asiya dəmir yolunu birləşdirdik. Ötən il dəniz limanının açılışı bu nəqliyyat şəbəkəsinin daha bir elementidir. Biz artıq Asiya ölkələrindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik. Biz bu yaxınlarda artıq Əfqanıstanın təbliğ etdiyi Lapis-Lazuli dəmir yolu və Şərq-Qərb dəhlizi ilə fiziki əlaqə əldə etdik. Biz artıq yeni mənbələrdən yüklər qəbul edirik. Bu, təkcə iqtisadi mənfəət deyil, həm də ölkələr arasında əlaqə, qarşılıqlı bağlılıq və yaxın əməkdaşlıq deməkdir. Beləliklə, nəqliyyat sahəsi beynəlxalq əlaqələrin mühüm sektorudur və o, çox yaxşı tərəfdaşlıq ruhu yaradır.

Qlobal təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən daha bir sahə enerji sektorudur. Azərbaycan enerji təhlükəsizliyinə çox investisiya yatırır. Aparıcı enerji şirkətləri ilə bizim birgə layihələrimiz həm xalqımıza, ölkəmizə fayda verir, həm də Azərbaycanda, qonşu ölkələrdə on minlərlə iş yeri yaradır və onlar beynəlxalq tərəfdaşlığa gətirib çıxarır. Azərbaycan neft kəməri ilə Qara dənizi və Xəzər dənizini, dünyada ilk dəfə olaraq neft kəməri ilə Aralıq dənizi ilə Xəzər dənizini birləşdirdi. Hazırda, biz Cənub Qaz Dəhlizi adlanan böyük layihə üzərində işləyirik. O, Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşmiş kəmər sistemi vasitəsilə əlaqələndirir. Kəmərin uzunluğu 3500 kilometrdir və yekun mərhələdədir. Ötən ilin mayında biz Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdik. Ötən ilin iyununda isə onun mühüm hissələrindən biri olan TANAP-ın-Trans-Anadolu Boru Kəmərinin açılışı oldu. Azərbaycan qazı artıq bu kəmər vasitəsilə nəql olunur və ümidvaram ki, gələn il layihə tam yekunlaşacaq. Bu, regionda ən böyük infrastruktur layihələrindən biridir. Qaz istehsalı və nəqlinə yatırılmış investisiyaların ümumi həcmi 40 milyard dollara yaxındır. Beynəlxalq maliyyə institutları bizə güclü dəstək verir və əlbəttə ki, korporativ vəsaitdən də istifadə olunur. Bu, enerji təhlükəsizliyi, enerji əməkdaşlığı və ölkələr arasında əməkdaşlıq layihəsidir. Bizim planlarımız bugünkü formatın hüdudlarından kənara çıxır. Biz artıq Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro kimi Balkan ölkələri ilə Anlaşma Memorandumu imzalamışıq. Ümidvaram ki, növbəti mərhələdə biz bu ölkələrlə həm də fəal əməkdaşlığa başlayacağıq. Cənub Qaz Dəhlizi layihəsinə bu və ya digər yolla qoşulmağı planlaşdıran ölkələrin coğrafiyası genişlənir. Bu, enerji və nəqliyyat təşəbbüslərinin geniş beynəlxalq əməkdaşlığa yol açdığını əyani şəkildə göstərir. Düşünürəm ki, biz enerji və nəqliyyat sektorlarında Asiya, Qafqaz, Avropa ölkələrini və Avropa İttifaqına üzv ölkələri əhatə edən beynəlxalq əməkdaşlığın yeni geniş formatını yaratmışıq. Bu, həqiqətən də qiymətli töhfədir və biz hələ bu prosesin başlanğıcındayıq. Çünki biz hələ icra mərhələsindəyik. Bütün bu layihələr həyata keçiriləndən sonra iqtisadi stimul, iqtisadi fayda olacaq, bu ölkələrdə on minlərlə iş yeri açılacaq və bu, ölkələri yaxınlaşdıracaq.

Çıxışımın əvvəlində qeyd etdim ki, Azərbaycanın xarici siyasəti müstəqildir və milli maraqlara əsaslanır. Bunun əsasında təkcə bizim siyasi iradəmiz deyil, həm də iqtisadi inkişafımız dayanır. Son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb. Biz Azərbaycanın əsas infrastruktur layihələrini tamamlamağa, maliyyə vəziyyətimizi əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa müvəffəq olduq. Xarici borcumuzun səviyyəsi çox aşağıdır, ümumi daxili məhsulun təxminən 19 faizinə bərabərdir və ehtiyatlarımız borcumuzdan 4-5 dəfə çoxdur. Beləliklə, Azərbaycanın maliyyə sabitliyi, iqtisadi inkişafı ölkəmiz üçün imkanlar yaratmaqla yanaşı, qonşu ölkələrə investisiya yatırmağa və daha çox körpü qurmağa imkan verir.

Düşünürəm ki, Forumun gündəliyi çox məharətlə seçilib. Siz bu gün narahatlığa səbəb olan ən mühüm və aktual məsələlərə toxunacaqsınız. Mən tam əminəm ki, məhsuldar müzakirələriniz və tövsiyələriniz tərəfdaşlığın güclənməsinə və gərginliklərin azalmasına yol açacaq. Foruma uğurlar arzulayıram. Təşəkkür edirəm.

## Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli Tərtər rayonu ərazisində müvəqqəti məskunlaşmış laçınlı köçkünlərlə görüş keçirmişdir

Laçın Rayonu İcra Hakimiyyətinin başçısı Aqil Nəzərlinin Tərtər rayonu ərazisində müvəqqəti məskunlaşmış laçınlı məcburi köçkünlərlə görüşü–səyyar qəbulu keçirilmişdir. Görüş Tərtər rayonu Şıxarx qəsəbəsində 1 saylı Şıxarx qəsəbə tam orta məktəbin binasında keçirilmişdir.



52 nəfər laçınlı məcburi köçkünün iştirak etdiyi görüşdə çıxış edən Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinə, məcburi köçkünlərə göstərilən diqqət və qayğıdan danışmış, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı xeyli işlərin görüldüyünü, 100-dən artıq müasir yaşayış kompleksi və qəsəbələrin salındığını, digər köçkünlərlə yanaşı yüzlərlə laçınlı köçkün ailəsinin də yeni mənzillərlə təmin edildiyini, bu sahədə işlərin davam etdirildiyini, xüsusilə digər ərazilərlə yanaşı Şirvan şəhərində köçkünlər üçün hündür mərtəbəli binaların inşasına başlanıldığını minnətdarlıqla bildirmişdir. Rayon rəhbəri, həmçinin əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidentinin 2019-cu il 25 fevral tarixli sərəncamı ilə əhalinin müxtəlif sosial təbəqələrinə verilən müavinətlərin artırılmasının əhalinin rifah halının yaxşılaşdırılması üçün görülən işlərin tərkib hissəsi olduğunu köçkünlərin diqqətinə çatdırmaqla, ölkə Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının artırılması məqsədi ilə 2019-cu il 26 fevral tarixli sərəncamı ilə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləğinin 50 faiz artırılmasını məcburi köçkünlərə yüksək səviyyədə olan dövlət qayğısının bariz nümunəsi olduğunu bildirmişdir. Rayon İcra Hakimiyyətinin başçısı çıxışında Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu istiqamətində, apardığı siyasəti və görülən işləri, diplomatiya sahəsindəki uğurlarını qeyd edərək erməni işğalında olan torpaqlarımızın da tezliklə azad ediləcəyinə əminliyini bildirmişdir.

Görüşdə iştirak edən laçınlı köçkünlər ölkə başçısı tərəfindən minimum əmək haqqı və pensiyaların artırılmasını, onlara verilən vahid aylıq müavinətin məbləğinin 50 faiz yüksəldilməsini, problemli kreditlərlə bağlı edilən güzəştləri yüksək dəyərləndirərək Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə minnətdar olduqlarını ölkə rəhbərinin ətrafında daim sıx birləşdiklərini bildirmişlər.

## Tərtərdə yem emalı müəssisəsi istifadəyə verildi

Tərtər rayonunun Azad Qaraqoyunlu kəndində Azərbaycan və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi tərəfindən birgə həyata keçirilən "Sosial-iqtisadi inkişaf fəaliyyəti" (SEDA) layihəsi çərçivəsində yem emalı müəssisəsi istifadəyə verildi.

Bu münasibətlə keçirilən tədbirdə rayon icra hakimiyyətinin, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), yerli özünüidarəetmə orqanlarının nümayəndələri və kənd sakinləri iştirak ediblər.



Tədbiri giriş sözü ilə SEDA-nın Gəncə-Qazax regionu üzrə direktoru Günay Zeynalova açaraq qonaqları salamladı və sözü Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova verdi. Rayon rəhbəri öncə tədbir iştirakçılarını Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə əks etdirən Novruz bayramı münasibəti ilə təbrik etdi, onlara əmin-amanlıq, ruzi-bərəkət və firavan həyat arzuladı. Ölkəmizdə kənd təsərrüfatının inkişafına göstərilən diqqət və qayğıdan və bu istiqamətdə həyata keçirilən layihələrin əhəmiyyətindən danışdı. Yem emalı müəssisəsinin istifadəyə verilməsinin Azad Qaraqoyunlu kəndi ilə yanaşı ətraf kəndlərin sakinlərinin də heyvandarlıq və bitkiçilik sahəsində fəaliyyətinin genişlənməsinə və yemə olan tələbatın ödənilməsinə şərait yaradacağını qeyd etdi. Dövlət tərəfindən kənd təsərrüfatının inkişafına göstərilən diqqət və qayğıya görə tərtərlilər adından Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına öz minnətdarlığını bildirdi.

# Daşkəsənli şəhid dəfn edildi

Ötən gün İran-Azərbaycan sərhədindən sərhədini pozmaq istəyən silahlı qrupla atışmada həlak olan kiçik çavuş Səxavət Məmmədov dəfn edilib.

10.03.2019-cu il tarixdə saat 06-50 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Fizuli rayonunun Bala Bəhmənli kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədini pozmağa çalışan silahlı terrorçuların qarşısını alan zaman 2017-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılmış, Daşkəsən rayonunun Təzəkənd kəndində 24.10.1999-cu ildə anadan olmuş kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu şəhid olmuşdur.

Şəhid Səxavət Məmmədov yaşadığı Göygöl rayonu, Yeni Qızılca kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, rayon Prokuroru və Polis rəisi, Göygöl rayonundan rəhbər şəxslər, sərhədçilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik! Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin Məlumatı

2019-cu ilin 10 mart tarixində saat 06:50 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Fizuli rayonunun Bala Bəhmənli kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasına cəhd edilmişdir.

Sərhəd naryadı tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində silahlı şəxslərin hərəkəti aşkar olunmuş və qarşısı alınmışdır.

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində olan sərhəd naryadının qanuni tələbinə və xəbərdarlıq atəşinə tabe olmayan sərhəd pozucuları tərəfindən sərhəd naryadına qarşı silah tətbiq edilmişdir.

Baş vermiş atışma zamanı sərhəd naryadının başçısı Daşkəsən rayonundan həqiqi hərbi xidmətə çağırıl-



mış kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu sinəsindən güllə yaraları almış, sərhəd naryadının üzvü Siyəzən rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu əlindən yaralanmışdır. Hər iki sərhədçi dərhal hərbi hospitala təxliyə olunsa da, kiçik çavuş S.Məmmədovun həyatını xilas etmək mümkün olmamışdır.

Dövlət sərhədini pozmağa müvəffəq ola bilməyən sərhəd pozucuları geri qaçmışlar.

Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər vəzifəli şəxslər əraziyə gəlmiş, hadisə yerinə baxış keçirmiş, əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar vermişdir.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti dövlət sərhədini mühafizə edərkən qəhrəmancasına həlak olmuş kiçik çavuş S.Məmmədovun atası ilə görüşmüş və baş sağlığı vermişlər.

Dövlət Sərhəd Xidmətinin rəisinin əmri ilə kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu (ölümündən sonra) və əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu xidməti vəzifələrinin icrasında göstərdikləri şücaətə görə “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalı ilə təltif olunmuşlar.

Hadisə ilə əlaqədar Hərbi Prokurorluqla birlikdə zəruri tədbirlər həyata keçirilir. Fakt üzrə cinayət işi başlanılmışdır.

## Gəncənin baş meydanı bayram libasını geyinib, baharın gəlişini gözləyir

Gəncənin Heydər Əliyev meydanında “Novruz şəhərciyi” salınıb, hündürlüyü 4,5 metr olan nəhəng səməni quraşdırılıb. Gün ərzində şəhərciyə gələn qonaqları Novruz



bayramının əsas atributları olan Kosa, Keçəl və Bahar qızı qarşılayır.

Təşkilati işlər üzrə məsul şəxs Sevinc Hüseynova bildirib ki, bu il digər illərdən fərqli olaraq sakinlər bir çox yeniliklərlə qarşılaşacaqlar: “Şəhərin baş meydanında 10 ədəd evcik qurulub. Burada müxtəlif yeyinti məhsullarının tanıtımı və satışı həyata keçirilir. Ərazidə uşaqların asudə vaxtının maraqlı təşkili üçün müxtəlif atraksionlar quraşdırılıb. İlk dəfə olaraq burada paytaxtdan gələn “Manqalçı Evi” təmsil olunur, sakinlərə közdə şabalıd təklif edilir. Martın 5-dən 28-nə qədər hər gün canlı konsertlər təşkil olunacaq. Şəhərcikdə gündəlik şou-proqramlar, uduşlu viktorinalar keçirilir. Təşkilatçılar tərəfindən qaliblərə müxtəlif hədiyyələrlə təqdim olunur. Həmçinin, bu il şəhərcikdə milli atributlarla bəzədilən “Novruz Evi” quraşdırılıb. Bu evdə qonaqlarımız milli paltarlarımızı geyinərək nağıl qəhrəmanları ilə birlikdə şəkil çəkdirə , “Face Art” xidmətindən istifadə edə bilərlər”.

Novruz şəhərciyində Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə musiqili proqramlar təqdim olunur. Konsert proqramları hər gün saat 18:00-dan başlayır. Konsertdə əsasən Gəncə Dövlət Filarmoniyasının kollektivi, şəhərdə fəaliyyət göstərən musiqi məktəblərinin ansambılları, Gəncə Musiqi Kollecinin istedadlı tələbələri iştirak edirlər. Bunlarla yanaşı Gəncə Dövlət Dram və Kukla Teatrları kollektivlərinin də çıxışları olur.

Qeyd edək ki, “Novruz şəhərciyi” Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, Gəncə Regional Mədəniyyət idarəsinin və “Gənclənd” Ailəvi-istirahət kompleksinin təşkilatçılığı ilə salınıb.

Məlumat üçün bildirək ki, mart ayının 19-da, yəni ilaxır çərşənbədə əsas meydanda möhtəşəm tonqal qalanacaq, martın 21-də isə Bakıdan dəvət olunan müğənnilərin iştirakı ilə konsert proqramı təşkil ediləcək.

## Samux Rayon İcra Hakimiyyətinin Başçısı vətəndaşların növbəti fərdi qaydada qəbulunu keçirdi

Samux Rayon İcra Hakimiyyətinin Başçısı cənab Alı Qocayevin başçılığı ilə vətəndaşların növbəti fərdi qaydada qəbulu keçirilmişdir. Qəbulda rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçiləri, hüquq mühafizə orqanları, aidiyyatı idarə, təşkilat, xidmət sahələrinin rəhbərləri, İnzibati Ərazi Dairələri üzrə nümayəndələr və bələdiyyə sədrləri iştirak etmişlər.

Vətəndaşların qəbulu saat 10:00-da başlamış, qəbula yazılmış 6 nəfər vətəndaşın müraciəti dinlənilmişdir. Onlardan 1 nəfər torpaq ilə bağlı, 1 minnətdarlıq ilə bağlı, 2 nəfər sənədləşmə il bağlı və 2 nəfəri isə məşğulluq ilə bağlı müraciət etmişdir.



Dinlənilmiş müraciətlərin və qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyatı qurumların rəhbərlərinə və məsul şəxslərə yerindəcə müvafiq tapşırıqlar verilmişdir.

## Hələbçə faciəsindən 31 il ötdü

# HƏLƏPÇƏ FACİƏSİ HEÇ ZAMAN UNUDULMAYACAQ



Tahir Süleyman Hələpçə şəhidlərini ziyarəti zamanı

### İRAQ KÜRDÜSTANINDA KÜTLƏVİ QƏTL

Otuz bir il öncə, faşist Səddam tərəfindən Hələbçə qəsəbəsinə atılan kimyəvi bombalar nəticəsində 5000 insan öldü, 7000 insan isə müxtəlif dərəcəli sağalmaz yara aldılar.

Hələ İran- İraq müharibəsi zamanı irqçi Baas partiyasının rəhbəri, İraq prezidenti,diktator Səddam Hüseyn I Dünya müharibəsindən sonra BMT-nin qadağan etdiyi "Sənf", "Tabun", "Sınır"-adlı kimyəvi qırğın silahlarından istifadə etmişdir. Qadağalara baxmayaraq o, 1984-cü ildən, İraq Kürdüstanının müxtəlif şəhər və qəsəbələrini bombalayan zaman həmin bombalardan istifadə etmişdir.

1988-ci ilin martın 16-da xalqın Novruz bayramına hazırlaşdığı bir zamanda, gözlərini qan tutmuş faşist Səddam, Kürdüstanın Hələbçə, Hurmal, Dauçayla, İnar, Sirva və Şexuasan yaşayış məntəqələrinə kütləvi qırğın bombaları atdırmışdır.

Təkcə 70 000 dinc əhalisi olan Hələbçə şəhərinə atılan kütləvi qırğın bombaları zamanı 5000 insan ölmüş, 7000 insan isə müxtəlif dərəcəli yanıq yaraları almışdır ki, onların müalicəsi yoxdur. Nəticədə minlərlə uşaq, qadın-qoca cəsədləri ilə ölü bir qəsəbəni andıran Kürdüstanın Hələbçə şəhəri ll Dünya müharibəsindən bu yana ən dəhşətli vəhşiliyə bir səhnə olmuşdur. Vaxtı ilə dünya ictimaiyyətı faşist Səddama qarşı tədbir görsəydi, çox güman ki, nə Hələbçə qətliyamı, nə də sonrakı müharibələr baş verməzdi.

Gec də olsa bu gün ABŞ-ın prezidenti və dünya ictimaiyyəti qatil Səddam Hüseynə qarşı qəti qərara gələrək qaniçənin rejimini dəyişdilər. Faşisti, özü hazırladığı və on minlərlə günahsız insanları asdığı dar ağacından asdılar. Əgər sistem dəyişilməsəydi çox güman ki, ölkəsinin vətəndaşlarına qarşı kütləvi qırğın silahı işlədən vəhşi, yəqin ki, bundan qatqat güclü kütləvi qırğın silahları qonşu dövlətlərə qarşı da istifadə edə bilərdi, belə zalımların qarşısı dünya ictimaiyyəti tərəfindən vaxtında alınmalıdır!

Sonda mübariz qəhrəman kürd xalqı, İraq parlamentinə Hələpçə qətliyamını soy qırım kimi qəbul etdirdi.

Bu bayram günlərində dünyanın bir sıra demokratik ölkələri, Hələpçə qətliyamını anır və Suriya kimi Novruz bayramını qana boyayan ölkələri isə lənətləyirlər.



















# HELEBÇE TU CAR JI BÎR NAÇE

**Sala 1988-ê16-17-ê adarê, dema ku gul û sosin hawîldor xwaşbûn dikirin û bihar bi lez berbi Newrozê va diçû, dîrok carek din vegerîya ser bextreşîya kurd. Pelên darê hêşîn di nav xwînêda “xemiland”, xwîn barîya bi ser jîyana kurdayetî va. Belê, ev ne yekem car bu ku gelê kurd, ketibû binê gullebaran û tîr barana dujmin, zar û zêç, pîr û çîwan, jin û mêr, bi kurtî hemu heyber û jînîyên xwezaya bajêrê Helebçê li ber çavê dost û neyar, di naverojek sayî û aramda, di bin bombeyên kîmyayî yên Seddamê rûqirêjde, kûtayî bi jîyana xwe dida. Esmanê hêşîn, ji firîna firokan toz û dûmanek sor direşand, jehrê bi ser rûyên mirovên bê gune û bê suçva, wekî tavîyên baranê dibarîya û gelên meye bê kes yek bi yek li Helebçê bi ser axa sarva, diwergerîya û axrîn nefesa xwe dida… Xopan bû, tofan bu herder, xwîn wekî lehîya avê di nezaranda diçun xwar.**

Kurdistan tu carî li bin darê zulmê star nekirîye. Gellek caran li hinberê zordarîyê gelê kurd bi mêrxasî rawestîyaye û ber xwe daye . lê dujmin firsend û mecal nedaye ta ku pirsîyara kurdî di zirûfên aştîyane de bête safî kirin. Dewletên dagirker mixrîkên nav beyna xwe da, carcaran dev avîtine hev , şer û qirên kirine, lê ev şer û qelasîya wan her li ser axa derbas bûye. Ji vî alîva kurd hatine kuştin û welatê wan pêpez buye, ji wî alîvajî dîsa her kurd telef bune. Li dawîyê di şerên navbera du desthelatdarên dagirker da ha kurda xisarê tîtine. Kî ji wana di şerda têk çû bê dîsan, di palêk de, di babeta kurdayetî da serkevtî hatîye hesavkirin. Di şerê Îran û Îraqêda jî,kîjan têk çûbe bila here kurd bi xwe divî şerîda herçend bêalî jî bin dîsa xisar kirine û welatên wan ketîye ber bombebarana dujmina.

Ev cara yekemîn nebu, ku Seddamê hov êrişa hewayî bi ser gelê kurdva dianî. Ev kîn û rik û xezeba rêjîma nijatperesta Îraq, ji mêjve tê berî çend sala wan dîsa bomba napalm avîtibu Kurdistana Başûr û dîsan bi hezaran kurd bibûne penaber û ji bona sitarekî bi ser av û şetan va ketîbû. Kurd ji bona starê wê demê xwe avîtibûn tor û bextên Îranîyan. Her çend bizanîya ku Îran jî ne doste, lê çawa bikirana mefer tunebû ji bo starê cîyê herî nêzîk Îran û Kurdistana Îranê bu. Kurdistana Îranê wê demê di bin bandurîya rêjîma Îranêda maye. Bi hezaran mirov hatibu kuştin,nêzîkî 3000-r malbat têk çûbû ,mal û xanî û debar hemî ji ber bombebaranê wêran bibu, gelo gunê kurda çi bû? Kurda xwe li dijî êrişa diparast û ne dixwastin ku şer welatê wan xopan bike.

Di sala 1988-a Seddam li ser yek êrişî 75-c navçeyên Kurdistanê kir. Ev êriş bi balafir û frokê hate kirin, bar û avêjên wan jî jehrîya kîmyayê bu. Bingehê pêşmergên navçê Zaxo LEQ -a 1-ê, bi erdêra bû yek. Kurdan nekarin xwe li himberî cekên kîmyayî ragîrîn. Wê roja reş, nêzîkî 10 000-r kurd hatine qelandin û kuştin, wekî 20 000-an jî birîndar bun û ewên din jî ku jimara wan digihîşte bi sed hezaran, li çar alî bela bun hewarîya xwe ji hemu cîhanêra beyan kirin.

## Helebçê-31



**Tahir Silêman zîyareta Helebçêda**

Ew weşeta nedîtî, dîyare wê çendîçend sal wê bîra meve, û wê bê neletkirin. Ev qetlîyamek, mrovkujîyek gelek mezin bu. Lê bê dengî hertim û hertim beşê kurdaye kesî guh neda dengê nalîna zarokên kurd. Seddamê faşîste xwînxwar dixwast ku gelên kurd ceza bike .Bi rastî jî ev ceza gellek giranbu. Wî dixast ku li ser axa kurdan navçeyeke vala û taybetî pêk bîne. Çekdarên kurd serê ewil vî navçeyê bombebaran kirî bernedan û bi qederê karîna xwe li ber xwe dan. Lê, ji heft beş artêşên Îraq sê beşên wî di vî opêrasîonêda beşdar bibun û ev hêz jî qabil nebu ku bi hêsanî têkhere û bişkê. Cehşên hindur jî li pişta artêşên xwînrêj li dijî gellên xwe şer tikirin. Pêşmerga ji alîyekva jin û zarokên kurd ji ber vê wehşetê direvandin, ji alîyek dinva jî, bi cekên destane li himberê debabe û frokeyên rêjîma nîjatperest şer tikirin.

Kurdên Helebçê vî alî, wî alî, bi perîşanî û bê kesîyêda revîn xwe spartine Turkîyê û Îranê. Sere ewil Turkîyê sînorê xwe girt lê paşê dît ku badilhewaye, kurd kurda li devra nahêle, sînor vekir û ji sed hezaran jortir kurdên Îraqê hatine Turkîyê. Birçîtî, neçarî, bêdermanî û tezîtîyan wan bi çî wekî mirovan jî rêijîma Turkîyê ru neda wan. Her wek ku dîlên şer bûn bi grew hatibûn girtin. Li Mêrdîn, Dîyarbekir û Mûşê bineçîyên sitarê nîşan da û çend kon û hinek xwarin û wexarin da wan, tu heqek penaberî li kurdanra nas nekir. Kurdên hatî di kanpên xweda her wek hêsîr û dîla di nav neçarîyêda xwe ji bombên kîmyayê parastin. Lê bextreşîya kurda li vir jî domand. Lewra gelek car hêzên ewlekarîya Turkîyê jehrî û dermanê mirinê avîtine nav xwarin û vexwarina kurdên penaber û her weha serok û pêşmergên hatî bi dizî û xef-xef dane rêjîma zordesta Îraqê. Mixabin, ev hemû hovîtî û qirkirin bin çavê cîhanê didomîya û kesek pêşî li vê rewşa xerav û ne mrovî nedigirt. Denk ,ji bîr û raya cîhanê û bi taybetî ji hêzên pêşverû û dêmokratên Turkîyê jî dernedîket.

### *Kesî li halê kurda nedipirsîya*

Bi rastî jî, buyera Helebçê qezîyake gelekî mezine. Careke din hate dîtin ku,kurd divê, dost û dijminên xwe baş ji hev cuda bikin. Di hemû perçeyên Kurdistanêda li ku derê dibe bila bibe, dema ku leyzek li ser çarenusîya kurd bê leyîstin, rêxistin û sazumanên kurdewarî hev her tim baş agadar bikin û ji hev bi xeber bin, piştovanî û pişt kirîya hev bikin.

Vaye çendin care ku dijmin bi ser kurdada agir dibarîne,sedem ku nikarîne li cîhanê dengê xwe bilind bikin,kesek xwe negîhandîye hewara kurdan. Gelek car dujmin kurda bi xwe berdaye hev û ew xwe daye alîkî temaşa şerê brakujîa kurda kirîye. Hêzên welatparêzên kurd jî bi dijmin xapîyane dest avîtine pêsîra hevdu û li dawîyêda doza Kurdistan bê hêz û bê deng maye. Gelek kurdên xwaîn û xwefroş jî mafên kurdayetdî firotine dijmin û bi rûreşî li gel dujmin cî girtine.

Di hemû beşên Kurdistanê de, dema pirsa kurdî hatibe holê, hemî rexên dijmin bi hevra yek dengî kirine û li dawîyê xwaşbinyek mirovatî ji, Kurdan re nasnekirine. Her wuha dewletên dijî maf u azadîya kurdan, her daîm, di nav xwe da gelek peyman û destbirakîya dizî û eşkere danîne. Wekî tê zanin di dîroka kurdan de gelek caran çar dewletên dagirker alîkarîya hev kirine û her tim hevkar bune. Dema ku tevgera kurdî li beşekî Kurdistanê pêşve çuye, nêzîkayî li edlahî û azadîyê kirîye: pêra û xof ketîye dilê wan zordarên beşên din. Ewana xwastine ku kurd her tim bindar bimînin.

Her yek ji wan xwîn û heyîna kurda bi hêsanî bimêje. Ew di nav hevdu ji hev bi xeber bune; lê pir mixabin ku kurdan firsend û mecal netîtîye ku ew ji di nav xwe da şêwr û mişawirayek daynin,yekitî û hevkarîyek çêkin û cîhanê deng bidin. Dîyare xêra dujminên kurda ji kurda ra tune ye. Yekem dostê kurdan,pêşîn kurd bi xwe ne. Kurdên hemî beşên Kurdistanê birayê hevin û girînge her kesek ji bo azadîya Kurdistan di mercên xwe yên taybetî de serbixwe be û gerî kurd, di beşê xwe de ber bi rizgarî edlahîyê ve bibe. Helepçe, wekî Hêroşîma û Nagasakî bû. Di serdema îro de, ev buyer li ser navê mirovahetîyê rûreşîyek mezin e, sûçek girane. Bona wêjî Seddam û hevkarên wî di dadgehê hatin dadigekirin û caze dardakirinêva emelên xwe “şûştin”. Gelê kurd û dostên wî tu carî Helepçe ji bîr nakin. Kula helebçê zû bi zû ji dil naçe. Hêvîdarin ku ne kurd tenê, lê hemû gelên cîhanê carek din mirovkujîyek wiha nebînin û li çar alîyê cîhanê aşîtîyek pêt bidamezirandin…..

**Amade kir: Tahir Silêman**

## Cejna Newrozê Serê Salê nû ye



**Konê Reş**

Cejnê Cejnê Cejnê
Xanê rok hat bejnê

Cejna newrozê ye
Serê salê nû ye

Va dar dipişkivin
Çiya dixemilin

Bi zer û kesk û sor
Bi riçinê wek por

Çûk çivîk dixwîn in
Hêlîna datîn in

Dil lêdide bijen
Xwerist dibe bi ken

Mirov dibe rûgeş
Jiyan şêrîn û xweş

Cejnê Cejnê Cejnê
Xello rok hat bejnê

Cejna Newrozê ye
Destpêka salê ye

Cejna ji sed salan
Roja bav û kalan

Heydê keko rabe
Bi vê rojê şabe

Em dadin agire
Ser zinar û gire

Agirê vê rojê
Nîşana Newrozê

Derenge zû rabe
Tev dostên xwe şabe.

**Strana Newrozê**

Bîst û yekê adarê
Destpêkirina buharê
Şaxên daran bişkivîn
Ji kulîlkên sor û şîn
Newroze cejna salê
Şev û roj hat qirarê
Rojên kevin hilatin
Rojên nû taze hatin
Rengê zemîn guherî
Şa bû, şivan û kerî
Newroze cejna salê
Şev û roj hat qirarê
Xwîna mirov dijene
Pêre dil jî dikene
Keç û kurên me kurdan
Bi şahî dikin dîlan
Newroze cejna salê
Şev û roj hat qirarê
Dibe dema evînê
Dil li ser dil datînê
Çûk û çivîk dixwînin
Hêlînên xwe datînin
Newroze cejna salê
Şev û roj hat qirarê.

# ZƏRDÜŞT VƏ NOVRUZ HAQQINDA

124 min peyğəmbərin sırasında Zərdüştün yeri, sözsüz ki, siyahıda ən yuxarı sətirlərdədir. İndiyədək onun adı daha çox müqəddəs Avesta kitabıyla qoşa, sinxron çəkilib. Lakin, Zərdüştün irsi təkcə elə bu kitabla kifayətlənmir. Zərdüştün günümüzədək gəlib yetirmiş mirasına həm də onun hazırladığı çox dəqiq astroloji təqvim də daxildir. Aşağıda biz sizlərə bu təqvimin tarixi, mənşəyi, xüsusiyyətləri barədə danışmaq istəyirik.

* * *

Orta əsr ərəb məxəzləri Zərdüştün mənşəyi, doğum yeri barədə tərəddüd etmədən eyni fikri bölüşürlər-o, Azərbaycanda dünyaya göz açıb. Əl-Biruni də bu fikirdədir, əl-Bəlazuri, əl-Qəzvini, əl Həməvi də. Avestanın ən qədim parçası sayılan “Qat”larda deyilir ki, Zərdüşt Turan tayfaları ərazisində doğulub. Sonradan vətənini tərk edərək Viştasp adlı bir hökmdarın məmləkətinə sığınıb. Uzun zaman onun himayəsi altında fəaliyyət göstərib. Beləliklə ulu Zərdüşt məhz Azərbaycan peyğəmbəridir. Yəni, belə deyək-Azərbaycan da peyğəmbərlər ölkəsi sayıla bilər. Peyğəmbərlər isə, bildiyimiz kimi heç vaxt öz vətənlərində qəbul edilmirlər. Bu acı tale Zərdüştü də təqib edir. 30 yaşında Zərdüşt bir sıra silahdaşlarının əhatəsində (onların sırasında qadınlar da varmış) Eran-Vedjo adlı müqəddəs bir şəhərə yollanır. Həmin şəhər vaxtilə əfsanəvi Cəmşid tərəfindən xüsusi plan əsasında inşa edilibmiş. Soyuq qış şaxtalarından qorunmaq naminə ən nümunəvi insanlar, heyvanlar, bitki növləri və s.i və ilaxır məhz bu uzaq ünvanda qorunub saxlanırmış. İndiki dillə desək, görünür bura bir növ buğda, cins, toxumluq, damazlıq mərkəziymiş. Orda, görünür həm də öz dövrü üçün ən mükəmməl rəsədxana da yerləşirmiş.

Zərdüşt peyğəmbər məhz həmin rəsədxanadan istifadə edərək öz mükəmməl astroloji təqvimini hazırlayır. Uzun illər sürən araşdırmalardan sonra alimlər həmin bu rəsədxananı indiki Rusiyanın Çelyabinsk vilayətində, Arkaim şəhərciyində aşkarlayırlar. Şəhər çox qəribə plan əsasında tikilib. Əslində bu dairəvi günəş şəhəri, canlı rəsədxanadır. Günəşin səmadakı səyahəti, bu şəhərin quruluşunda dəqiq ölçülərlə təkrarlanır- millimetrinə qədər. Əslində, burda şəhərlə rəsədxana arasında elə bir fərq yoxdur.

Belə mükəmməl dairəvi sxemləri, naxışları, gəlin, insan əməyinin məhsulu bilməyək. Adətən, yaz, yay aylarında bu cür düzənlik ərazilərdə səhər vaxtları “kürəvi ildırım” adlanan möcüzəli təbiət fenomeni gəzir. Torpaq, yaxud taxıl, əkin zəmiləri üzərində mükəmməl naxışlar həkk edir. Nəinki Zərdüşt zamanları, elə indi də oxşar naxışlar, bir də görürsən, hansısa bir əkin sahəsi üzərində aşkarlanır. Başlayır camaat arasında minbir şaiyə yaratmağa. Həmin dairələrin ortasındakı buğda sümbülünün keyfiyyəti həmişə kənardakılardan üstün olur. Alimlər bunu təbii seleksiya



nümunəsi bilirlər.

Belə naxışların biri üzərində əfsanəvi Cəmşid, bayaq adını çəkdiyimiz günəş şəhərini- Arkaimi inşa edir. Şəhər, göydəki günəşin hərəkət trayektoriyasını özündə tam əks etdiyindən əsl rəsədxana imiş.

Belə dairəvi günəş şəhərləri o vaxtkı Orta Asiya, Güney Ural ərazisində bir deyil, iki deyildi. Qədim türklər bu cür dairəvi şəhərlərə “qazan” deyərlərmiş. Məncə, indiki Tatarıstanın paytaxtı Qazan şəhərinin adı da məhz həmin sirlə əlaqədardır. Dövrünün bir çox alimləri, o cümlədən ulu Zərdüşt məhz bu cür oxşar ünvanlarda göy cisimlərini müşahidə edirdilər. Bütün bunların son nəticəsi kimi axır ortaya Zərdüşt təqvimi çıxır.

* * *

Zərdüştülüklə bağlı olan nə varsa indi xalqımızın alt şüuruna hopub. Yəni, bəli, biz indi, bu gün nə Avestaya bələdik, nə də ki, qədim zərdüştülük ayinlərinə. Ancaq Zərdüşt təqvimindən indi də istifadə edirik. Xüsusən, Novruz bayramının dəqiq vaxtını təyin edərkən, biz bəli, məhz bu təqvimdən yararlanırıq.

Heyif ki, biz bu mükəmməl təqvimi deyəsən azca unutmuşuq. Halbuki öncəgörmələr baxımından həmin təqvimin tayı-bərabəri yoxdur. Müasir Rusiyanın bir nömrəli münəccimi sayılan aysor mənşəli Pavel Qloba, gələcək barədə öz proqnozlarını məhz bu təqvimə əsaslanaraq irəli sürür. İndi, Rusiyada elə bir samballı mətbuat orqanı yoxdur ki, orda Pavel Qlobanın astroloji proqnozları verilməsin.

Bu təqvim, 32 ili əhatə edən xüsusi qərinələrə bölünür. Hər il, bir heyvanın xassələrini özündə cəmləyir. Məsəlçün, martın 21-dən etibarən Porsuq ili başlayır. Porsuq isə neynir?-dərinliklərdə yuvasını qzıb ora alinə nə keçdisə yığır. Bu isə Porsuq ilini bank, maliyyə, xəzinə məfhumlarıyla, işarələriylə müşaiət edir. Yəni belə vaxtda bank böhranları, maliyyə silkələnmələri ola bilər. Porsuq rəmzi eyni halda keçmiş xatirələr, nostalji hissləriylə əlaqədardır. Yəni bu ildə biz nostalji hisslərini çox yaşamağa məhkumuq. Xəstələrə belə vaxtda dərman deyil, müalicəvi ot kökləri yemək məsləhət görünür. Porsuq ilində emosiyaları gizlətmək məsləhət deyil. Onları mütləq açıq-aşkar nümayiş etdirmək vacibdi.

1920, 1952, 1984, 2016, 2048 illər Zərdüşt təqvimində Porsuq illəri sayılır. Beləliklə, biz bu il 1920-ci il hadisələrini yenidən yaşaya bilərik. Yəni 1920-ci il 28 aprel hadisələrinin təkrarı, bir başqa şəkildə bu il bizləri təqib edəcək. Zərdüşt təqvimində hər bir rəmzin tam əksi də mövcuddur. Yəni, sən əgər Porsuq ilində bu rəmzin qanunlarıyla yaşamasan, özündən küs. Bil ki, belə halda əks rəmzin- Köstəbək rəmzinin dəyərlərini təkrarlamağa məhkumsan. Bu ilin bizə nə verəcəyini bilmək istəyirsinizsə, məşhur Britanya yazarı Ceyms Oruelin “1984” romanını diqqətlə oxuyun. Axı 1984-cü il də, eynən bu il kimi, Porsuq ili olub.

***Həmid Herisçı***



**BÊWAR BARÎ TEYFÛRÎ**

## Zindîye Newroz

Zindîne meydan bona niştiman,
Rabûn serhildan torinê Medan.
Ji bo azayê gel ê Kurdistan,
Dimeşe temam bûye şoreşvan.
Bo bijî Newroz agir li xwe dan,
Geç û lawên me bûne pêkrewan.
***
Bi berxwedana zindîye Newroz,
Bi şeîda gel wê dike pîroz.
Newroz jîna nû ji mera xelat,
Ji Kewa dema ev roja felat.
Agrê Newrozê hingavt Rojhelat,
Bû cejn û vejîn hebûna welat.
Remza azayê ev roja evra,
Mizgînê didin bi agir hevra.
Suruşt jî şa dibe
Ku tê ev dem ,kat,
Girasê jînê Xudike heyat..
***
Gelê ku bindeste
Dijî bê sînor,
Jîyan jêra dibe
Çawa dojeh,gor.
Bedela azayê
Hertim xwîna sor,
Ew nay pêşkêş kirin
Dest tînin bi zor.



**Ədalət Bədirxanlı**

**YAZ YAĞIŞI**

*EMİN və NİGARIN nişanı*

Zümzüməsi göyü qucar,
Hər dənəsi işıq saçar,
Bulaqlara sarı uçar
yaz yağışı...

Nəzrinimin boyu bəstə,
Damlalara qoşar bəstə,
Nərgizlərdən tutar dəstə,
yaz yağışı.

Damcıların zərrələnər,
Eşq, məhəbbət səpələnər,
Emin, Nigar qürrələnər,
yaz yağışı.

Göy üzündən nur ələnər,
Ürəklərə eşq çilənər,
İki sevda qönçələnər,
yaz yağışı.

Çəmənlərin bəzəyisən,
Çaylarımın özəyisən,
Gülün bəzək- düzəyisən,
yaz yağışı.

İldırımlar çaxmağında,
Yeri-göyü yaxmağında,
Göz yaşı tək axmağında,
yaz yağışı.

Çox baxmışam gədiklərə,
Ayaq dəyməz o diklərə,
Ürkək gəzən əliklərə,
yaz yağışı.

Laçın qonub xəyallara,
Ömrüm dönüb suallara,
Yağır viranə yallara
yaz yağışı.

Bulud kimi lay axıram,
Zirvələrə hey baxıram.
Qəlbimi köz-köz yaxıram,
yaz yağışı.

Çırpılıram qayalara,
Çevrilirəm röyalara,
Qarışıram ziyalara,
yaz yağışı.

Nişan günü,
Sənin kimi,
Sevinc dolu,
Göz yaşları!

Yaz yağışı!
Yaz yağışı!

***16.03.2006***

**SƏMƏNİ**

Səmənisən nimçədəsən,
Süfrələrin bəzəyisən.
Bərəkətsən hər evdə sən,
Bu ellərə xoş gəlmisən.

Bir nimçədə qızlar dəni,
Əkib becərirlər səni.
Ən istəkli əzizinə
Bayram payı verir səni.

Baharın ilk müjdəsisən,
Hər ürəkdə bir zəmisən.
Bol neməti, bərəkəti,
Hər il özün gətirirsən.

Rəngi yaşıl sevdalısan,
Xonçalarda yer alırsan.
İncə beli bağlamısan,
Tam gəlinə oxşayırsan.

Elə bil ki, nişanlısan,
Toy - büsata darıxırsan.
Hər il bahar sovqatını
Hamıya sən paylayırşan.

Hamşı şamı ətrafına,
Düzüb sonra yandırırlar.
Pərvanələr şama gəlib,
Öz eşqini anladırlar.

Yola salır bahar qışı,
Hami dəmə qoyur aşı.
Kosa, keçəl şənlik edir,
